

**Sultanov Nural Yaşar oğlu**

Nurlan Yaşar oğlu Sultanov  1999-cu il mayın 31-də Tovuz rayonunun Dönük Qırıqlı kəndində anadan olub. 2015-ci ildə Dilman Süleymanov adına Dönük Qırıqlı kənd tam orta məktəbin 9-cu sinifini bitirib. Həmin ilin sentyabr ayında Tovuz Dövlət Sosial-İqtisad Kollecinə qəbul olub. 2019-cu ildə kollec təhsilini başa vurub və həmin ilin oktyabr ayında həqiqi hərbi xidmətə gedib.

Azərbaycan Ordusunun əsgəri olan Nurlan Sultanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın, Qubadlının və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Nurlan Sultanov noyabrın 4-də Füzuli döyüşləri zamanı şəhid olub.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə əsgər Sultanov Nurlan Yaşar oğlu "Vətən uğrunda", “Cəbrayılın azad olunmasına görə” və “Qubadlının azad olunmasına görə” medalları ilə təltif edilib.